**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
________ dos. Zaur Məmmədov
"12" 09 2025-ci il

# FƏNN SİLLABUSU

**İxtisas:** 060101- Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** Azərbaycan dili və ədəbiyyat
**I.Fənn haqqında məlumat:**
**Fənnin adı:** S\f (Bədii təsvir və ifadə vasitələrinin tədrisi metodikası). Proqram Təhsil Nazirliyinin 30.04.2009-cu il tarixli, 502 saylı əmri ilə təsdiq edilmişdir.
**Kodu:** MİF-B05.4
**Tədris ili:** II (2025-2026) Semestr: III
**Tədris yükü cəmi**: Auditoriya saatı 45 (Mühazirə 30 saat, Seminar 15 saat)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 8 kredit
**Saat:**
**II.Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:**Elşad Məhərrəm oğlu Səfərli fil.e.n.dosent
**Məsləhət günləri və saatları:** V gün, saat 09.00-13.00
**E-mail ünvanı:** *elsad-1957@mail.ru*
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Əli Məmmədov küçəsi - 40 , 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərslik, dərs vəsaitləri və metodik vəsaitlər**

**Əsas ədəbiyyat:**

1. M.Rəfili. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958
2. Ş.Mikayılov. Ədəbiyyatın tədrisi metodikası
3. Ş.Mikayılov. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1988
4. C.Əhmədov. Ədəbiyyat tədrisi metodikası
5. C. Əhmədov. Azərbaycan ədəbiyyatının tədrisi tarixindən. Bakı. 1971
6. A.Hacıyev. Ədəbiyyatşünaslığın əsasları. Bakı. 1999
7. M.Cəlal. P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı. 1988

**Əlavə ədəbiyyat:**

1. M.Mahmudov. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. Bakı, 2006
2. X.Əlimirzəyev. Ədəbiyyatşünaslığın nəzəri əsasları.
3. N.Şəmsizadə. Ədəbiyyat nəzəriyyəsi. Bakı. 2012
4. R.Əliyev . Ədəbiyyat nəzəriyyəsi. Bakı. 2008
5. Ə.Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı. 1968
6. B.Həsənli. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2012.
7. T.Əfəndiyeva. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980.
8. Bədii dilin üslubiyyatı. Bakı, 1970.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən bakalavr pilləsində "Ədəbiyyat nəzəriyyəsi" fənninin keçirilməsi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Orta məktəbdə ədəbiyyat dərslərində ədəbiyyat nəzəriyyəsi materiallarının öyrənilməsi, şagirdlərə mənimsədilməsi çox vacib məsələlərdən biridir. Çünki, bunsuz şagirdlərin bədii əsəri və ümumiyyətlə, ədəbiyyat tarixini, ədəbi tənqidi başa düşməsi, qavraması mümkünsüzdür. Bədii mətnin dərkində, qavranılmasında məcazlar (troplar), obrazlı vasitələr, ümumiyyətlə bədii təsvir və ifadə vasitələrinin rolu çox böyükdür. Buna görə də magistratura

səviyyəsində seçmə fənlər sırasında bədii təsvir və ifadə vasitələri fənninin keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu vasitələr sistemi bədii əsərin mükəmməlliyində əsas rol oynadığı üçün magistrlərin və bakalavr tələbələrinin bu fənni mənimsəmələri çox vacibdir. Bu işin ali təhsilin magistr pilləsində də həyata keçirilməsi çox vacib və zəruridir.
Seçmə fənn kimi bədii təsvir və ifadə vasitələrinin magistrlərə bədii ədəbiyyatın nəzəri əsaslarının öyrədilməsində xüsusi əhəmiyyət daşıyır. Çünki bu proses onlarda bədii əsərin təhlilində, sənətkarlıq və özünəməxsusluqları dərk etməkdə, obrazlı vasitələri-bədii təsvir və ifadələrini mənimsəmə, qavrama, dərketmə metodlarını öyrənməkdə, ədəbiyyatşünaslıq elmini bütövlükdə mükəmməl bilməkdə onlara yardımçı olur.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində , 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2025-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.
İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

- 10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.
- 8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal- tələbənin cavabı əsasən düzgündür.
- 5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** *Tələbə Universitetin daxili nizam –intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.*

**X.Təqvim mövzu planı:** *Mühazirə 30 saat, Seminar 15 saat, Cəmi: 45 saat*

| № | Keçirilən mühazirə mövzularının məzmunu | Saat | |
|---|---|---|---|
| | | Müh | Tarix |
| 1 | 2 | 3 | 4 |
| 1 | **Bədii təsvir və ifadə vasitələrinin tədrisi metodikasının ümumi məsələləri.** **Plan:**Orta əsr mənbələrində bədii təsvir və ifadə vasitələrinin rolu məsələsi. Bədii təsvir və ifadə vasitələri anlayışlarının nəzəri izahı. Troplar, bədii fiqurlar və s. X-XI siniflərdə ədəbiyyat nəzəriyyəsinin öyrədilməsi qarşısında duran vəzifələr. | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Mənbə:** [1,2,3,4,5,12,13] | | |
| 2 | **Bədii təsvir və ifadə vasitələrinin üslubiyyat baxımından təhlili.**<br>**Plan:**Ədəbiyyatşünaslıq baxımından bədii təsvir və ifadə vasitələrinin izahı. Dilçilik baxımından bədii təsvir və ifadə vasitələrinin şərhi.<br>**Mənbə:** [1.2.3.4.5.7.12] | 2 | |
| 3 | **Sözün həqiqi və məcazi mənasının izahı.**<br>**Plan:**Sözün müstəqim və məcazi mənası. Obrazlılığın yaranmasında sözün çoxmənalılığının rolu.<br>**Mənbə:** [1.2.5.9.11.12,13] | 2 | |
| 4 | **Epitetin tədrisi metodikası.**<br>**Plan:**Epitetin obrazlılığın yaranmasında rolu. Epitetin xarakterik cəhətləri. Epitet, yaxud bədii təyin. Epitetdə özünəməxsusluq. Müqəyyəd epitet.<br>**Mənbə:** [1,2,3,5,8,12,13] | 2 | |
| 5 | **Təşbehin tədrisi metodikası.**<br>**Plan:**Təşbeh anlayışı. Təşbehin bədii əsərin mükəmməliyində rolu. Təşbehin epitetdən fərqi.<br>**Mənbə:** [1,2,5,7,8,9,11] | 2 | |
| 6 | **Metaforanın nəzəri izahı və tədrisi.**<br>**Plan:**Metaforanın əsas xüsusiyyətləri və növləri.<br>**Mənbə:** [1.2,3,5,10,12,13] | 2 | |
| 7 | **Metonimiyanın tədrisi metodikası.**<br>**Plan:**Sinekdoxa. Metonimiya ilə oxşar və fərqli xüsusiyyətlər.<br>**Mənbə:** [1,2,3,7,8,11,12] | 2 | |
| 8 | **Bədii ifadə vasitələri. Poetizmlərin öyrədilməsi.**<br>**Plan:**Bədii təsvir vasitələri ilə oxşar və fərqli tərəfləri.<br>**Mənbə:** [1,2,3,6,7] | 2 | |
| 9 | **Mübaliğənin tədrisi yolları. Litota.**<br>**Plan:**Mübaliğə və litota. Litotanın obrazlılığda rolu.<br>**Mənbə:** [1,2,3,5,8,9] | 2 | |
| 10 | **Bədii təzadın tədrisi yolları.**<br>**Plan:**Bədii ifadə vasitələri sistemində bədii təzadın rolu.<br>**Mənbə:** [1.2.3.5,6.8,9,12] | 2 | |
| 11 | **Bədii sualın öyrədilməsi.**<br>**Plan:**Bədii sualın ifadə vasitəsi kimi xüsusiyyətləri.<br>**Mənbə:** [1,2,3,6,7,10,11,12,13] | 2 | |
| 12 | **Təcəssümün tədrisi üsulları. Kinayə.**<br>**Plan:**Obrazlılıqda kinayə və təcəssümün əhəmiyyəti.<br>**Mənbə:** [1.2,3,8,9,11,13] | 2 | |
| 13 | **Təkririn tədris xüsusiyyətləri.**<br>**Plan:**Təkririn növləri. Anafora və epifora.<br>**Mənbə:** [1,2,3,5,6,7,8,9] | 2 | |
| 14 | **Alleqoriyanın (təşxis) öyrədilməsi üsulları.**<br>**Plan:**Alleqoriya və təcəssüm. Oxşar və fərqli xüsusiyyətləri<br>**Mənbə:** [1,2,3,5,8,9,10] | 2 | |
| 15 | **Bədii, poetik fiqurların öyrədilməsi üsulları. İnversiya. Evfemizm. Perifraza.**<br>**Plan:**Poetik fiqurlar və poetik sintaksis. İnversiyanın ifadənin təsir gücünün artırılmasında rolu<br>**Mənbə:** [1,2,3,4,5,7,8,9,11,12,13] | 2 | |
| | **Keçirilən seminar məşğələlərinin məzmunu** | **Sem** | |
| 1 | Bədii təsvir və ifadə vasitələrinin tədrisi metodikasının ümumi məsələləri. Bədii təsvir və ifadə vasitələrinin üslubiyyat baxımından təhlili. | 2 | |

| | | | |
|---|---|---|---|
| 2 | Sözün həqiqi və məcazi mənasının izahı. Epitetin tədrisi metodikası. | 2 | |
| 3 | Təşbehin tədrisi metodikası. Metaforanın nəzəri izahı və tədrisi yolları. | 2 | |
| 4 | Metonimiyanın tədrisi üsulları. Bədii ifadə vasitələri. Poetizmlərin öyrədilməsi. | 2 | |
| 5 | Mübaliğənin tədrisi yolları. Litota. Bədii təzadın tədrisi yolları. | 2 | |
| 6 | Bədii sualın öyrədilməsi. Təcəssümün tədrisi üsulları. Kinayə. | 2 | |
| 7 | Təkririn tədris xüsusiyyətləri. Alleqoriyanın (təşxis) öyrədilməsi üsulları. | 2 | |
| 8 | Bədii, poetik fiqurların öyrədilməsi üsulları. İnversiya. Evfemizm. Perifraza. | 1 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Magistrlər seçmə fənn kimi Ədəbiyyat nəzəriyyəsinin tədrisi metodikasını mənimsəməlidirlər. Çünki bunsuz bədii əsərlərin mövzu-ideya, bədii və digər sənətkarlıq xüsusiyyətlərini, ümumiyyətlə ədəbiyyatşünaslıq elminin tərkib hissələrini dərk etmək mümkünsüzdür. Bunun üçün də magistrlər ədəbiyyat nəzəriyyəsi elminin bir sıra problemləri ilə bağlı yazılmış əsərləri, tədqiqatları, ədəbiyyatşünas alimlərin nəzəri mülahizə və düşüncələrini, həmçinin metodikasını, metodoloji prinsiplərini də tədris-mənimsəmə prosesində öyrənməlidir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

1.Tələbə bədii ədəbiiyyatın dərkində bədii təsvir və ifadə vasitələrinin əvəzsiz rolu haqqında geniş aspektdə məlumatlar əldə edir, tələbə magistr və şagirdlərə həmin vasitələrin metodiki cəhətdən öyrədilməsi üsul və metodları ilə bağlı bilgiləri mənimsəmiş olur.

2.Bədii dilin məcazilik, obrazlılıq effekti surətlərin nitq fəaliyyətində məcazların rolu məsələsinə metodiki baxımdan yiyələnir.

3.Məcazlar, ümumilikdə epitet, bənzətmə, metafora, metonimiya,simvol,alleqoriya,kinayə,mübağilə və s. haqqında təsəvvürünü zənginləşdirir.

Bədii ifadə vasitələrinin bədii sual, bədii nida, təkir, təzad, tədrik və s. orta məktəblərin "Ədəbiyyat" kurslarında metodiki tədrisinin prinsip və yolları haqqında bilikləri mənimsəyir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV: Kollokvium sualları:**

**I Kollokvium sualları**

1. Bədii təsvir vasitələrinin tədrisi xüsusiyyətlər
2. Bədii ifadə vasitələrinin öyrədilməsi
3. Orta əsr mənbələrində bədii təsvir və ifadə vasitələrinin şərhi
4. Y.Xoylunun "Tənvir" əsərində obrazlı vasitələrin izahı
5. Sözün həqiqi və məcazi mənasının nəzəri öyrədilməsi
6. Təşbehin tədrisi metodikası
7. Epitetin tədrisi metodikası
8. Metonimiyanın tədrisi metodikası
9. Metaforanın nəzəri izahı və tədrisi
10. Bədii əsərlərin dərkində məcazlar sisteminin rolunun izahı.

**II Kollokvium** sualları

1. Mübaliğə və litota anlayışlarının tədris xüsusiyyətləri.
2. Təcəssümün nəzəri şərhi
3. Bədii təzadların metodik şərhi
4. Kinayənin tədrisi metodikası
5. Təkrinin tədrisi xüsusiyyətləri
6. Alleqoriyanın nəzəri öyrədilməsi
7. İnversiyanın bədii əsərdə rolunun öyrədilməsi
8. Bədii sualın öyrədilməsi
9. V-XI siniflərdə bədii təsvir və ifadə vasitələrinin öyrədilməsi
   1. X-XI siniflərdə bədii təsvir və ifadə vasitələrinin öyrədilməsi

**XV. İmtahan sualları:**

1. Bədii təsvir vasitələrinin tədrisi xüsusiyyətləri.
2. Bədii ifadə vasitələrinin öyrədilməsi.
3. Orta əsr mənbələrində bədii təsvir və ifadə vasitələrinin şərhi.
4. Epitetin tədrisi metodikası.

5. Təşbehin tədrisi metodikası.
6. Bədii təsvir və ifadə vasitələrinin üslubiyyat baxımından təhlili.
7. V-XI siniflərdə bədii təsvir və ifadə vasitələrinin öyrədilməsi.
8. Bədii əsərlərin dərkində məcazlar sisteminin rolunun izahı.
9. X-XI siniflərdə bədii təsvir və ifadə vasitələrinin öyrənilməsi.
10. Y.Xoylunun "Tənvir" əsərində obrazlı vasitələrin izahı.
11. Sözün həqiqi və məcazi mənasının nəzəri öyrədilməsi.
12. Bədii əsərlərin mükəmməlliyində məcazların rolunun öyrədilməsi.
13. Təşbehlə metafora arasında oxşar və fərqli cəhətlərin izahı.
14. Təşbehlərin əlamətlərinin öyrədilməsi üsulları.
15. Metonimiyanın metaforadan fərqinin izahı.
16. Bədii sualın öyrədilməsi.
17. Təkririn tədrisi xüsusiyyətləri.
18. Kinayə və tərizin öyrədilməsi üsulları.
19. Litotanın şərhi.
20. Təkririn növlərinin tədris metodikası.
21. Mübaliğə və litota anlayışlarının tədris xüsusiyyətləri.
22. Metaforanın nəzəri izahı.
23. Metonimiyanın öyrədilməsi.
24. İnversiyanın şərhi.
25. Bədii təsvir vasitələrinin ifadə vasitələrindən fərqli xüsusiyyətləri.
26. Sinekdoxanın şərhi.
27. Təşbeh anlayışının izahı.
28. Epitet və onun növləri haqqında verilən biliklər.
29. Bədii təsvir və ifadə vasitələrinin nəzəri izahı.
30. Məcazlar sisteminin öyrədilməsi.
31. Simvolun izah xüsusiyyətləri.
32. Təcəssümün nəzəri şərhi.
33. Kinayənin tədris metodikası.
34. Kinayənin sarkazm (təriz) növünün izahı.
35. Hiperbola mübaliğənin bir növü kimi.
36. İnversiyanın bədii əsərdə rolunun öyrədilməsi.
37. Alleqoriyanın nəzəri öyrədilməsi.
38. Metaforanın növlərinin tədris prinsipləri.
39. Metonimiya məcazın bir növü kimi.
40. Bədii təzadların metodiki şərhi.
41. Oksimoron məcaz növü kimi.
42. Poetik sintaksis anlayışı.
43. Poetik fiqurlar anlayışı.
44. İnversiya sintaktik fiqur kimi.
45. Anafora təkririn növü kimi.
46. Epiforanın öyrədilməsi.
47. Məcazların bədii əsərin ideyası ilə bağlılığı.
48. Məcaz yaradılmasında müqayisənin rolu məsələsi.
49. Məcazi mənanın təsvirdə rolu.
50. Fərdi və ümumişlək məcazlar.

**"S\f (Bədii təsvir və ifadə vasitələrinin tədrisi metodikası)"** fənninin sillabusu **060101** "Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası" ixtisaslaşması (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. **"Azərbaycan dili və ədəbiyyat"** kafedrasının 9 sentyabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur (Protokol № 01 ).

**Kafedra müdiri:** **dos.Q.İ.Rufullayev**

**Fənn müəllimi:** **dos.E.M.Səfərli**

Tanış oldum: [illegible]